## "Qarabağ: Zəfər yolunda" kitabından səhifələr

# BÖLÜNMƏZ VƏTƏNİN ÖLMƏZ ŞƏHİDİ

## (Rəhimov Zamin Vahid oğlu, 21.04.1988-08.10.2020)

Vətəni sevmək imandandır – deyiblər. Hər bir insana bu sevgi nəsildən, qannan, gennən gəlir və sonra tükənməz bir vətən sevgisinə çevrilir. Hara getsən də, haralarda olsan da bu sevgi səninlə addımlayır və böyük bir məhəbbət yaradır – Vətən məhəbbəti...

Doğma ata ocağından didərgin düşəndə Zaminin 5 yaşı vardı. Bəlkə də ağlı o qədər kəsmirdi baş verənləri. Özü də bilmədən uzun bir zaman kəsiyinə yerləşəcək bu köçün başlanğıcını əzablı bir səyahət hesab edirdi. Ona görə əzablı deyirik ki, ağlı kəsdikcə başlarına gələn müsibətin ağırlığını görürdü. Biləsuvarın ilan mələyən çöllərinə dağılmış ailələri min bir əzab-əziyyət, ağlasığmaz məşəqqətlər gözləyirdi. Cəbrayılın sərin dağ havasının həzin mühitinə vərdiş eləmiş, bu gün isə Muğan qışının qan donduran ayazına, şaxtasına, yayının beyin qaynadan istisinə tapınan insanların çətinlikləri səngimirdi...

Haqqında söhbət açacağımız Rəhimov Zamin Vahid oğlu 21 aprel 1988-ci ildə Cəbrayılın Yuxarı Məzrə kəndində anadan olub. Tanıyanlar bilir ki, Məzrə kəndi Araz boyunda – Sarıcallı kəndi ilə yanaşı, Yuxarı Məzrə isə dağlar qoynunda o vaxtlar Hadrut rayonu ərazisində bədnam Daşbaşı kəndi ilə qonşuluqda yerləşsə də, inzibati ərazi vahidi kimi Cəbrayılın "Dostluq" kolxozunun ərazi vahidi hesab olunurdu.

1993-cü il avqustun 15-də Daşbaşı postunun ermənilər tərəfindən alınması və burada keşik çəkən 20-yə qədər hərbçinin bir gecədə qəddarcasına öldürülməsindən sonra bir həftə müddətində Cəbrayılın şimal hissələri – yuxarı Məzrə də daxil olmaqla, 50-yə qədər kənd düşmən işğalına keçdi. O vaxt Cəbrayıl əhalisinin böyük bir hissəsi Arazboyu kəndlərlə Biləsuvar-Bəhramtəpə ərazisinə topalaşdı və burada müvəqqəti təşkil olunmuş çadır düşərgələrinə sığındılar. Zaminin atası Vahid kişi də öz ailəsi ilə çadır şəhərçiyinə pənah gətirdi. Üç uşaq ilə çadırda yaşamaq çox çətin idi. Zamin 1995-ci ildə 2 saylı çadır şəhərçiyində 1-ci sinfə getdi. Bir neçə il sonra Bakı şəhərinə köçən və Binəqədi rayonunda məskunlaşan ailə bir az rahatlandı. Zamin Sulutəpədəki Əsgər Veysəlov adına Sirik tam orta məktəbin 3-cü sinfinə daxil olmuş və 2006 - cı ildə həmin məktəbin məzunu olmuşdur. Zahirən arıq, çəlimsiz uşaq olsa da, hələ orta məktəbdə ikən Xırdalan şəhərindəki idman mərkəzində cüdo üzrə məşqlərə gedirdi. Bir neçə idman yarışlarında uğurla çıxış edən Zamin turnirlərdən birinin qalibi kimi qara kəmər mükafatçısı oldu. Musiqi kökü Qarabağa bağlı olan insanların qanında olub həmişə. Zamində də musiqiyə bir bağlılıq var idi. Qarmon ifa edirdi və orta məktəbi başa vurub, Şuşa Mədəni-Maarif Kollecinin qarmon sinfinə daxil oldu.

2006-cı ildə hərbi xidmətə yola düşən Zamin Rəhimov 2008-ci ilə qədər Şəmkir rayonundakı "N" saylı hərbi hissədə xidmət edir. 2008-ci ildə əsgərlikdən gələrək təhsilini davam etdirir. 2010-cu ildə kolleci bitirən Zamin 2013-cü ildə Mahmudlu Uşaq Musiqi Məktəbində qarmon müəllimi işləməyə başlayır. 2017-ci ildə isə dayısı qızı Leyla xanımla xoşbəxt ailə həyatı quraraq, həyatlarını yaşayırlar. Cütlüyün 2018-ci ildə İnci adlı qız balası dünyaya gəlir.

Ancaq Zaminin bütün fikirləri doğma yurd yerlərində - Cəbrayıla-Qarabağa köklənmişdi. Ona görə də mənfur düşmən iyunun 27-də Tovuzda təxribat yaradanda Zaminin fikrində könüllü olaraq döyüşlərə qatılmaq kök saldı. General-mayor Polad Həşimovun öldürülməsindən sonra Zamin könüllü olaraq Azərbaycan Ordusunun tərkibinə daxil oldu. Elə Tovuz ətrafındakı hərbi əməliyyatlarda iştirak edən vətənpərvər soydaşımız Vətən Müharibəsi başlayan kimi bu dəfə də Qarabağa üz tuturdu. Sentyabrın 27-də başlayan qanlı döyüşlər Zamini qorxutmurdu. Onun fikri, amalı, əqidəsi yalnız Cəbrayılda doğma kəndlərində idi.

Zamin Rəhimov hələ yeniyetmə yaşlarından vətənpərvər bir gənc kimi diqqəti cəlb edirdi. Çox tərbiyəli, mədəni, heç kəsin xətrinə dəyməyən xeyirxah bir oğlan idi. Onun vətənpərvərliyi nəslindən, kökündən gəlirdi. Ata-ana babaları 1941-1945-ci il müharibəsinin iştirakçısı olmuş və sağ-salamat vətənə dönmüşdülər. Əmisi Vaqif və Balakişi, dayıları Vaqif, Akif, Vahid və Səxavət I Qarabağ Müharibəsi veteranları, dayısı Vahid isə Qarabağ əlilidir. Zaminin atası Vahid də I Qarabağ Müharibəsi iştirakçısı və veteranıdır. 1993-cü ilin Daşbaşı döyüşləri zamanı atası böyük fədakarlıq göstərərək, adamların atəş altından çıxarılmasına nail olmuş, həyatını təhlükə qarşısında qoyaraq, öz şəxsi maşını ilə kənd camaatını oradan aşağılara endirmişdi. O vaxtlar 3-4 yaşı olan Zamin sonralar öz doğmalarından bu söhbətləri eşitdikcə onda düşmənə qarşı intiqam hissləri daha da artırdı. Düşməndən qisas alınacağı günün tezliklə gələcəyini düşünürdü. Artıq qisas günü gəlib çıxmışdı. Zamin də döyüşçü dostları kimi "Ya Qarabağ, ya ölüm"- deyərək irəli çıxmışdı. Bir həftə qanlı döyüşlərdə əzmlə, cəsarətlə, kişi kimi döyüşmüşdü. Şəhid olmasına bir neçə saat qalmış evlərinə zəng vuraraq, Qarabağ əlili olan dayısı Zahidə şad xəbər verən Zamin demişdi: "Dayı, o dediyim yerdəyəm, (Cəbrayıl nəzərdə tutulur – red.) azad etdik, tay ölsəm də dərdim olmaz". Bu Zaminin son sözü, son harayı oldu...

Zaminin böyük qardaşı Zabil də hərbçidir, Silahlı Qüvvələrin Hərbi Hospitalında çalışır. Zamini sonsuz bir təəssüf, tükənməyən qürur, heç vaxt unudulmayacaq bir sevgi və istəklə yada salır: "Zamin məndən kiçik olsa da, elə bil ki, böyük o, kiçik mən idim"- deyir. "Çox təəssübkeş, zəhmətsevər, xeyirxah, nə bilim, qardaşım olduğuna görə demirəm – insanda olan ən gözəl xüsusiyyətlərin hamısı bu adamda var idi. Mən onunla qardaş yox, dost idim, sirdaş idim. Bir çətinliyə düşəndə ona deyirdim, məsləhətləşirdim. Mən özüm də hərbçi idim. Ona dedim hələ getmə, qoy, görək nə olur, sonra gedərsən. Çağırış məntəqəsinə müraciət eləmişdi. Ancaq dayanmadı. Getdi. Əslində o, dayana bilməzdi. Onun xarakteri elə idi. Çox vətənpərvər idi. Kaş ki, belə tez ayrılmayaydıq. Onun ölümü mənim üçün heç vaxt unudulmayacaq acımdır. Amma bir təskinliyimiz var ki, torpaqlarımız xain qonşularımızın işğalından azad olundu. Zamin Cəbrayıl üçün çox darıxırdı, elə Cəbrayılda da şəhid oldu".

Zamin Rəhimovun bacısı Xəzanın ürəkparçalayan sözləri elə bil ki, oğlu şəhid olan hər ananın, qardaşı dünyadan nakam getmiş hər bir bacının ah-naləsi, ürək sözləridir: "Canım qardaşım, səni itirmək mənim üçün çox ağırdır. Artıq sənsiz həyat mənim üçün maraqsız, mənasız və dəyərsizdir. Sənin yoxluğuna inanmaq mümkün deyil. Ancaq neyləmək olar ki, bu reallıqdır. Sən mənim üçün həmişə ideal bir qardaş olmusan. Sirdaşım, döyünən ürəyim, qolum, qanadım olmusan. Sən çox böyük ürəyə sahib idin. Gözlərin həyatın şirinliyi ilə dolu idi. Deməyi, gülməyi, dostlarınla əylənməyi çox sevərdin. Heç vaxt kiminsə qəlbinə dəymək istəməmisən. Öz xalqını, millətini, torpağını çox sevirdin – necə öz ailəni, doğmalarını sevirdin. Mənim ürəyi, qəlbi təmiz qardaşım, mənə şəhidlik zirvəsi ancaq bu cür insanlara nəsib ola bilər. Çünki gözəl Allahım ancaq çox sevdiyi insanları şəhadət zirvəsinə ucaldır. Mən fəxr edirəm ki, sənin kimi igid, mərd bir qardaşın bacısıyam".

Bəli Xəzan balamız, sən fəxr etməyə layiqsən. Sən, həm də bütün Azərbaycanın fəxr elədiyi qəhrəman bir döyüşçünün, qəhrəmanın bacısısan.

Ruhu, qəlbi musiqiyə, sözə, nəğməyə köklənən insanın qəlbi də təmiz olur, pis niyyətdən, pis vərdişlərdən həmişə kənar olur. Zamin müəllim sevib-seçdiyi, sənətlə-qarmonun sirmayi dillərində səsləndirdiyi muğam, musiqi, mahnılarla da ürəklərə girmişdi.

Musiqiyə bağlılıq da nəsildən, kökdən gəlirdi. Ana babası Cəbrayılda Aşıq Məlikli kəndindən idi və bu kənd daha çox musiqiçiləri ilə seçilirdi. Dərs dediyi şagirdləri onu sadəliyinə, səmimiliyinə görə çox sevirdilər. Qarabağı, Cəbrayılı daha çox sevdiyinə görə həmişə "Qarabağ şikəstəsini" çalardı. Bu ritmik muğamda da həmişə bir nisgil, bir həzinlik, bir hayqırtı var. Oxuyan olmasa da, "Qarabağ şikəstəsi"nin ürəkləri ehtirasa gətirən misralarını tez-tez dilə gətirirdi:

Könlüm keçir Qarabağdan,
Gah o dağdan, gah bu dağdan,
Axşamüstü qoy uzaqdan,
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi.

Və bu misraları zümzümə eləyəndə həmişə uşaq yaddaşının dolaylarında ilişib qalmış kəndlərinin uca dağları, yamacları, bir də I Qarabağ döyüşlərində iştirak eləmiş iki əmisinin, dörd dayısının söhbətləri, o vaxtkı hadisələrdən xatırlamaları düşürdü. Tez-tez onlara sual verirdi ki, axı nə təhər oldu ki, biz doğma yurd yerlərimizdən didərgin düşdük?

I Qarabağ müharibəsinin qazisi dayısı Məmmədov Zahid Zamini belə xatırlayır: "Zaminin üzünə, görüntüsünə baxanda mən fikirləşirdim ki, çox da cüssəli olmasa da, bu uşaqda nə qədər qorxmaz ürək var. Mən ona baxanda deyirdim kaş ki, biləydim bu uşağın ürəyi nə boydadı. Həmişə oturub söhbət eləyəndə müharibə ilə bağlı suallar verirdi. Mən olub-keçənlərdən, Daşbaşı döyüşündən, Qarabağ müharibəsinin tarixinə düşmüş məşhur Şur və Şişqaya döyüşlərindən danışırdım. Deyirdi – dayı, sən istəyirsən bir də müharibə olsun? Əlbəttə, deyirdim. Olmalıdır. Erməni Qarabağdan elə-belə çıxmayacaq, biz də torpaqlarımızı onlara verməyəcəyik. Bu isə mütləq müharibəyə gətirib çıxaracaq.

44 günlük savaş tariximizin ən şərəfli səhifələrini yazdı. Bu səhifələr Vətən oğullarının qanı ilə, canı ilə həkk oldu tariximizə. Şərəflə yaşamağın yolunu göstərən şəhidlərimizin həyatı əbədi dastan olacaq, zaman-zaman onların adları heykəllərdə, əbədiyyət ünvanlarında, yollarda bələdçi olacaq. Bu adlar həm də şairlər üçün ilham qaynağı olaraq söz bulağına ilham bəxş edəcək. Yaşarlığın, ölməzliyin nəğmələri sözə dönəcək, zaman-zaman şəhidlərin adları ilə, onların ruhlarının tərənnümü ilə yaddaşlarda təzədən göyərəcək, övladlarımız bu adlarla böyüyəcək. Şair-publisist Əli Rza Xələflinin elə bu günlərdə qələmə aldığı "Bir uca zirvə var" (25.02.2021) şeirinin baş qəhrəmanı hər bir Vətən şəhidi olduğu kimi həm də Zamin Vahid oğlu Rəhimovdur. Zamin adının özündə bir inam, bir zəmanət anlamı var. Sanki o, öz canı ilə Vətənə zamin durub, Vətəni qorumağı özünə borc bilib. Şair Əli Rza Xələfli şəhidlərə həsr etdiyi bu şeirində Zaminin Vətənə zəmanətindən danışır sanki. Sanki bizi inandırır sözü ilə şəhidin məramının Vətən olduğuna. Bu məramın özü, idealı Vətəndir.

*Vətən şəhidisən - qəbrin bu torpaq,*
*Qanından yol üstə lalələr bitər.*
*Səhər küləyində əsən hər yarpaq,*
*Bülbüllər dilində nəğmələr ötər.*

*Bu yerdən, bu göydən uçub keçənlər,*
*Sənli nəğmələri gözünə tapar.*
*Məzarın üstünə dumanlar, çənlər,*
*Dağların gözünün yaşını səpər.*

*Göylər ulduz-ulduz sevinir, gülür,*
*Səhərin dan üzü, günəş boyusan.*
*Adınla öyünən sözüm də bilir,*
*Torpağın övladı, yurdun soyusan.*

*Göylərdən baxsan da mələk donunda,*
*Bədənin bu yerə, yurda əkilib.*
*Yenə bu qismətin nağıl sonunda,*
*Sənin alma payın göyə çəkilib.*

*Vətən şəhidisən, yurdun sınağı,*
*Sənə ucalıqda taxt verib Allah.*
*Bizlər bu dünyanın beş gün qonağı,*
*Sənə əbədilik baxt verib Allah!*

*Dönüb ürəklərdə bağçaya, bağa,*
*Hər təzə fəsildə, ildə dönərsən.*
*Canını verdiyin doğma torpağa,*
*Hər bahar çiçəkdə, güldə dönərsən.*

*Sənin həsrətini, ayrılığını,*
*Kolların dibində bənövşə çəkər.*
*Şəhidlik adına Ağrı dağını,*
*Vətən sinəsində həmişə çəkər.*

Tarixən Azərbaycan ədəbiyyatında lalə bağrıqanlıq, bənövşə ayrılıq obrazı olub. Şair çox uğurla bu obrazları şəhid adı ilə, şəhid obrazı ilə qovuşdura bilib.

(Davamı 16-cı səhifədə)

Şairin bu ürəkdağlayan şeirini Zaminin şəhidlik anından əvvələ çəkdik. Sanki özümüzü də, sözümüzü də bir təskinlik ünvanına hazırladım. Və indi Əli Rza Xələflinin şeirinin yaratdığı kədər ovqatı ilə sözümünzün sonuna doğru gedirik, daha doğrusu, Zaminin şəhidlik məqamına doğru.

Torpaqlarımız yalnız müharibə yolu ilə azad ola bilər. mən Allahdan elə o günü gözləyirəm, dayı – deyirdi. Mə gecə-gündüz yata bilmirəm. Mən bu müharibədə iştirak eləməliyəm. İş elə gətirdi ki, məlum Tovuz hadisələrindən sonra o, müharibəyə könüllü olaraq yollandı. Amma könüllü getməyini nə anası, nə yoldaşı bilmədi. Təxminən 1-2 ay



gəlməsə də, min dəfə Allah rəhmət eləsin deyirəm Zaminə!

Zaminlə dostluq edənlərdən biri onun ən yaxın dostu, sirdaşı olan Nəsimi idi. 3-cü sinifdən sonra bir yerdə oxumuşdular. Sözləri, sirləri bir idi. Zamin Nəsimiyə çox bağlı idi. Hara getsə, nə eləsə onunla məsləhətləşərdi. Nəsimi deyir ki, Zamin çox dostcanlı, qohumcanlı, ən başlıcası isə uşaqcanlı idi. Bax küçədə balaca bir uşaq görsəydi, o saat onu danışdırar, üzündən öpər, cibində bir çey varsa çıxarıb ona verərdi. Balaca bir qızı vardı, hər gün qabağına qaçardı. Demək istəyirəm, evdə də, çöldə də, işdə də çox mehriban və xeyirxah idi. Hərbiyə gedəndə də eləydi. Mənim bir qonşum var zabit idi. Təsadüfən onun komandiri idi. Hər dəfə onu görəndə Zamini soruşurdum, çox razılıq edirdi. Yaxşı əsgər olması, nizam-intizamlı olması barədə ağızdolusu danışardı. Hərbi komissarlığa da birlikdə ərizə yazdıq. Amma dedi ki, evdə deməyəcək.

Mən atama dedim. O, isə mənə çox təkid elədi ki, bizimkilərə demə. Atamla yanına getdik ki, qoy atana deyək, dedi yox, çox xahiş edirəm deməyin. Bax, Zamin belə bir vətənpərvər idi, qorxurdu ki, valideynləri, doğmaları birdən onu qaytararlar.

Zamini ehtiramla yad edənlərdən biri də əmisi Rəhimov Balakişidir. O da Qarabağ müharibəsi veterani idi. Balakişi ilə söhbətimiz zamanı o deyirdi ki, Zamin elə hey Qarabağ döyüşləri haqqında soruşurdu. Söhbətlərindən anlayırdım ki, bu uşağın

# BÖLÜNMƏZ VƏTƏNİN ÖLMƏZ ŞƏHİDİ

Ağcabədi Taxta körpüdəki "N" saylı hərbi hissədə qulluq edib. Məsələ burasındadır ki, həm döyüşlər ərəfəsində, həm də döyüşdən qabaq səfərbərlik zamanında Zamini bədəncə zəif olduğuna görə yaxına qoymaq istəməyiblər. Hər iki məqamda Zamin təkidli şəkildə getmək istədiyini bildirib, hətta qalmaqal da yaradıb. Şəhid olan günü mənə zəng vurmuşdu. Səhər 10-11 arasıydı. Dedi ki, o dediyin yerdəyik. Allaha şükür, dediyimiz oldu. Elə həmin gün Xocavənd istiqamətindəki döyüşlərdə şəhid olmuşdur.

Zamin həyat yoldaşı Leyla ilə dayıqız, mamaoğludurlar. Leyla xanımla danışanda qəhər onun boğazında ilişsə də, "Mən Zaminlə qürur duyuram" – dedi. Yeganə balamız İncini çox sevirdi. İndi İnci atasızlığın ağrı-acısını hələlik başa düşməsə də, vaxt gələcək, o, özü də bir qəhrəman – Qarabağ qəhrəmanının qızı olmağı ilə fəxr edəcək, qürur duyacaq. Mən İnci balamızı atasının sağ vaxtı istədiyi kimi böyütməsinə nail olacam. Çalışacam ki, onun atası Vahid əminin də, anası Raya xanımın da Zaminsizlik ağrı-acılarına həmişə su səpim. Vətənimiz sağ olsun. Dilim

daxilində bir təlatüm, püskürmək üçün məqam axtaran odlu-alovlu bir vulkan var. O vulkanın oyandığı gün 27 sentyabr oldu. Zamin getdi və içindəki o vulkanın alovunu ermənilərin başına tökdü.

Bütün bu deyilənlər, yazılanlardan belə məlum olur ki, Zamin müharibəyə böyük qələbə əzmiylə getmişdi və bu yolda böyük şəhidlik yolunu da görürdü. Cəbrayıl azad olunandan 4 gün sonra oktyabrın 8-də Zamin Rəhimov Şişqaya ətrafında şəhidlik zirvəsinə ucaldı. Şişqaya adı çəkiləndə bizim yadımıza 1 Qarabağ döyüşləri zamanı Cəbrayıl döyüşləri tarixinə düşmüş və 1992-ci ilin 15 avqustunda baş vermiş Şişqaya əməliyyatı düşdü. O vaxt 30-dan çox soydaşımızın öldürüldüyü o məşum döyüşdən sonra o döyüşçülərin xələfləri Şişqayanı azad etdi. Ruhları şad olsun hər birinin. Zamin 9 oktyabr 2020-ci ildə Biləcəridəki şəhidlər xiyabanında torpağa tapşırıldı. Rəşadətli döyüş fəaliyyətinə görə o Ali Baş Komandanın sərəncamı ilə "Vətən uğrunda" medalına layiq görülmüşdür.

*İsmayıl İMANZADƏ,*
*Tariyel ABBASLI*